4
2022

İSSN-0207-4710

# GÖYƏRÇİN





# DÖRD ELEMENT

(İspan xalq nağılı)

Nə vaxtsa dünya tam, bütöv idi və dörd elementdən - dörd ünsürdən ibarət idi: su, atəş (od), külək və vicdan. Amma bir az keçəndən sonra onlar nəyə görəsə bir-biri ilə yola getməyib, ayrılmaq qərarına gəldilər. Hərəsi öz istədiyi yerə getməyə, müstəqil yaşamağa üstünlük verdi.

Birinci Su dedi:

-İndi biz bir-birimizdən ayrılacağıq. Ancaq tezliklə mənə nə qədər ehtiyacınız olduğunu anlayacaqsınız. Yer kürəsinin harasına getsəniz, mənə rast gələcəksiniz. Bulaqlar, çaylar, dənizlər elə mənəm.

Sonra Atəş (od) danışdı:

- İndi biz həmişəlik ayrılacağıq. Ancaq sizə lazım olsam, Günəşdə baxmağınız kifayətdir. Mənsiz yaşamaq sizə çox çətin olacaq.

Danışmaq növbəsi Küləyə çatdı. O da əsib-coşub sözə başladı:

-Əgər sizə lazım olsam, məni səmada, buludların arasında axtararsınız. Mən olmasam, təmiz hava üzünə həsrət qalacaqsınız.

Son söz Vicdanın idi. O, dərindən ah çəkib dedi:

-Əgər məni itirsəniz, bir də tapa bilməyəcəksiniz.

# MÜQƏDDƏS UŞAQ

(İspan xalq nağılı)

Bir dəfə quraqlıqdan əziyyət çəkən kəndin adamları keşişin evinə gedib ondan kömək istədilər. Xahiş elədilər ki, onlara Müqəddəs Uşağın heykəlciyini versin. Ümidləri var idi ki, bu heykəlciyi tarlanın yanında qoyub ona dua eləsələr, mütləq yağış yağacaq.

Kahin onların arzusunu yerinə yetirdi. Kəndlilər Müqəddəs Antoninin abidəsinin qucağındakı Müqəddəs Uşağın heykəlciyini əllərinə götürüb dua eləyə-eləyə bütün tarlanı, kövşəni gəzdilər.

Onlar evlərinə qayıdanda səmada nəhəng buludların bir yerə toplandığını gördülər. Duaların qəbul olunması, yağış yağmaq ehtimalı hər kəsi çox sevindirdi. Amma yağış əvəzinə yerə dəhşətli dolu yağmağa başladı.

Hava şəraitinin pis olması səbəbindən kəndlilər müqəddəs heykəlciyi vaxtında kilsəyə qaytara bilmədilər. Səhərisi gün heykəlciyi geri qaytarmaq istəyəndə gördülər ki, dolu onların tarladakı bütün əziyyətini heç eləyib.

Bunu görən kəndlilər yenidən keşişə şikayətə getdilər...

- Müqəddəs ata, icazə verin Müqəddəs Antonininin heykəlini də özümüzlə tarlaya aparaq.

- Niyə?

- Oğlunun dünən bizim başımıza nə oyun gətirdiyini ona göstərmək istəyirik!

Tərcümə edəni: R.Y.Əliyev